# Mountains ADAPT

# Kiçik Qrantların Maliyyələşdirilməsi Proqramı (SGFS)

## Qrant proqramı haqqında ümumi məlumat

| | |
|---|---|
| **İcra regionu:** | Cənubi Qafqaz (CQ) |
| **Proqramın əhatə etdiyi ölkələr** | Cənubi Qafqaz ölkələri, o cümlədən Azərbaycan[1] |
| **İcraçı təşkilatlar** | Qeydiyyatdan keçmiş qeyri-hökumət və vətəndaş cəmiyyəti təşkilatları (QHT); üstünlük veriləcək yerli səviyyədə fəaliyyət göstərən icma əsaslı təşkilatlara (İƏT), gənclər və qadın təşkilatlarına |
| **Tematik istiqamətlər** | – **Ekosistemlərin bərpası**<br>– **Suyun toplanması və saxlanması**<br>– **İqlimə uyğun ağıllı kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi**<br>– **Fəlakətlərə hazırlıq**<br>– **Gəlir mənbələrinin artırılması və yeni gəlir imkanlarının yaradılması**<br>– **Sağlamlığın və həyat keyfiyyətinin yaxşılaşdırılması** |
| **Hər layihə üzrə qrant məbləği** | 30 000 ABŞ dollarınadək |
| **Faydalanan qrup** | Yerli dağ icmaları |
| **İcra müddəti** | 12 ay |

[1] Daha geniş Mountains ADAPT maliyyələşdirmə proqramı Şərqi Afrika ölkələrini də əhatə edir. Daha ətraflı məlumat üçün veb sayta daxil olun: https://www.unep.org/topics/climate-action/adaptation/ecosystem-based-adaptation/mountains-adapt

## Müraciət üçün uyğunluq

SGFS Cənubi Qafqazın dağ icmalarında iqlim dəyişikliyinin təsirlərinə uyğunlaşmanı dəstəkləmək məqsədilə vətəndaş cəmiyyəti təşkilatlarına maliyyə dəstəyi təqdim edir. Proqram çərçivəsində icmaların ehtiyaclarına əsaslanan və yerli səviyyədə həyata keçirilən təşəbbüslərə üstünlük verilir. Xüsusilə icma əsaslı təşkilatların, eləcə də gənclər və qadın təşkilatlarının müraciətləri üstünlük olunacaq.

Müraciət edən təşkilatlar üçün əsas uyğunluq meyarları aşağıdakılardır:

- **Dağlıq ərazidə iqlim dəyişikliyi ilə bağlı həll edilməli problem və ya həssaslıq mövcud olmalı**; məqsəd dolanışıq imkanlarını və ekosistemləri qorumaq, bərpa etmək və ya yaxşılaşdırmaq, eləcə də ərzaq təhlükəsizliyini gücləndirmək olmalıdır.
- Təşkilat proqramın əhatə etdiyi **ölkənin dağlıq ərazisində yerli səviyyədə** fəaliyyət göstərməli, rəsmi qeydiyyatdan keçmiş olmalı və dağ ekosistemlərinə və icmalarına fayda və xidmətlər göstərməlidir.
- Təşkilatın **icmalarla və icmalara fayda verən layihələrdə** iş təcrübəsi olmalıdır; uyğunlaşma və/və ya ətraf mühit sahəsində fəaliyyətlərin həyata keçirilməsi üzrə sübut olunmuş təcrübə üstünlük hesab ediləcək.

Qadınların və gənclərin səlahiyyətlərinin artırılmasına, onların hüquq və imkanlarının genişləndirilməsinə, həmçinin gender balansının yaxşılaşdırılmasına töhfə verən təşkilatlara üstünlük veriləcək.

Proqramın maliyyə dəstəyi **iqlim dəyişikliyinin təsirlərinə həssas** dağ **icmalarının dayanıqlığının** artırılmasına xidmət edən innovativ fəaliyyətlərə yönəldilir. Layihələr yerli icmaların imkanlarını genişləndirməli, müəyyən edilmiş iqlim risklərinə və onların təsirlərinə cavab verməli, müvafiq milli və yerli siyasət və planlara uyğun olmalıdır. Eyni zamanda, **Təbiət əsaslı həllər (NbS)** layihənin bütün istiqamətlərində əsas yanaşmalardan biri kimi tətbiq edilməlidir. Dəstəklənən təşəbbüslərdə icmaların bilik və bacarıqlarının artırılması, ənənəvi bilik və təcrübələrin qorunması və gücləndirilməsi, eləcə də qadınların, gənclərin və digər həssas qrupların üzləşdiyi xüsusi çətinliklərin nəzərə alınması təşviq olunur.

**Fəaliyyətlər bir və ya bir neçə tematik istiqamət** üzrə insanların dolanışıq imkanlarını kompleks və dayanıqlı şəkildə dəstəkləyən yanaşma əsasında həyata keçirilməlidir. Bu istiqamətlərə aşağıdakılar daxil ola bilər, lakin bunlarla məhdudlaşmır:

- **Ekosistemlərin bərpası:** Təbiət əsaslı həllərdən (NbS) istifadə etməklə deqradasiyaya uğramış landşaftları bərpa etmək; BMT-nin Ekosistemlərin Bərpası üzrə Onilliyinin[2] rəhbərlik prinsiplərinə uyğun olaraq həm ekoloji bütövlüyü, həm də dolanışıq imkanlarının dayanıqlılığını gücləndirmək.
- **Suyun toplanması və saxlanması:** Ekosistem əsaslı yanaşmalar tətbiq etməklə icmanın su infrastrukturunu (məsələn, su təchizatı sistemini) təkmilləşdirmək və onun davamlı istismarını təmin etmək, icma üzvlərinin suya ədalətli və bərabər çıxışını təmin etmək.
- **İqlimə uyğun ağıllı kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi:** Aqro-ərzaq sistemlərini yaşıl və iqlimə dayanıqlı təcrübələrə keçirmək; quraqlığa davamlı bitki və toxum növlərini təşviq etmək, aqroekologiya və permakulturanı inkişaf etdirmək, damcı suvarma və yağış suyunun toplanmasını dəstəkləmək, torpağın sağlamlığını yaxşılaşdırmaq üçün kompostlama, malçlama və regenerativ əkinçilik təcrübələrini təşviq etmək.

---

[2] BMT-nin Ekosistemlərin Bərpası üzrə Onilliyi (2021–2030), UNEP və FAO-nun rəhbərliyi ilə ekosistemlərin deqradasiyasının qarşısını almağa, onu dayandırmağa və aradan qaldırmağa yönəlmiş qlobal fəaliyyətə çağırır. Onun rəhbər prinsipləri ekoloji bütövlüyü, inklüzivliyi, bərabərliyi, dayanıqlılığı və həm insanlar, həm də təbiət üçün uzunmüddətli faydaları vurğulayır. Ətraflı məlumat: www.decadeonrestoration.org

- **Fəlakətlərə hazırlıq:** İcma səviyyəsində riskləri qiymətləndirmək, yerli erkən xəbərdarlıq sistemləri hazırlamaq, torpaqdan istifadədə mümkün dəyişiklikləri nəzərdən keçirmək və tərəfdaşlıqlar qurmaqla ekosistem əsaslı fəlakətə hazırlıq tədbirlərini dəstəkləmək.
- Yerli məhsulların istehsalı, emalı və satışının, ekoturizmin və Təbiət əsaslı həllərlə bağlı sahibkarlığın inkişaf etdirilməsi yolu ilə yeni və alternativ gəlir imkanlarının yaradılması.
- **Sağlamlığın və həyat keyfiyyətinin yaxşılaşdırılması** Yüksək temperaturun insan sağlamlığına mənfi təsirinin və ətraf mühitin çirklənməsinin azaldılması, həmçinin hamı üçün əlçatan ictimai və istirahət məkanlarına çıxışın yaxşılaşdırılması yolu ilə yaşayış şəraitinin yaxşılaşdırılması.

## Müraciət prosesi

Müraciət edən təşkilatlar onlayn müraciət formasını dolduraraq layihə haqqında tələb olunan məlumatları təqdim etməli və zəruri sənədləri əlavə etməlidirlər.

**Sənədlər**
Müraciət edən təşkilatlardan müraciətə aşağıdakı təsdiqedici sənədlərdən bəzilərini əlavə etmələri tələb olunacaq:

- Təşkilatın qeydiyyat şəhadətnaməsi
- Təşkilatın bank rekvizitləri (yalnız seçilmiş təşkilatlardan tələb olunur)
- Təşkilatın qanuni nümayəndəsinin pasportu (yalnız seçilmiş təşkilatlardan tələb olunur)
- Zərurət yarandıqda tələb olunan əlavə məlumat

Layihə məlumatları da daxil olmaqla bütün sənədlər **milli dildə və ya ingilis dilində təqdim edilə bilər**.

## Meyarlara uyğunluğun yoxlanılması.

Onlayn müraciət təqdim edildikdən sonra icraçı tərəfdaşlar UNEP-in layihə komandası ilə məsləhətləşərək bütün müraciətlərin uyğunluğunu ilkin mərhələdə qiymətləndirəcəklər. Əlavə məlumat və ya dəqiqləşdirmə tələb olunarsa, müraciət edən təşkilatla əlaqə saxlanılacaq.Bu mərhələdə təqdim olunmuş məlumatlar aşağıdakı minimum uyğunluq meyarları əsasında nəzərdən keçiriləcək və zəruri hallarda yoxlanılacaq:

- ✓ Müraciət formasında tələb olunan bütün əsas məlumatlar tam şəkildə təqdim olunub.
- ✓ Müraciət edən təşkilat rəsmi qeydiyyatdan keçib, yerli icmanın etimadını qazanıb və fəaliyyətini maliyyə baxımından davam etdirmək imkanına malikdir.
- ✓ Təsvir olunan problem dağlıq ərazidə iqlim dəyişikliyinə uyğunlaşma ilə əlaqəlidir.
- ✓ Təklif olunan həll əsasən Təbiət əsaslı həll olmalı və kompleks yanaşmaya əsaslanmalıdır.
- ✓ Təklif olunan həll UNEP-in Ətraf Mühit və Sosial Dayanıqlılıq Çərçivəsinin (ESSF)[3] rəhbər prinsiplərinə uyğun olaraq UNEP-in ekoloji və sosial təminat standartlarına cavab verir.

**Uyğunluğun ilkin yoxlanılması meyarları.**

Ədalətli, şəffaf və tələblərə uyğun idarəetməni təmin etmək məqsədilə aşağıdakı aydın uyğunluq meyarları tətbiq ediləcək:

---

3 https://wedocs.unep.org/items/e428255f-06d8-4882-8920-4d7aeb0b706

- Müraciət edən təşkilat proqramın əhatə etdiyi dağlıq ərazidə fəaliyyət göstərən və rəsmi qeydiyyatdan keçmiş icma əsaslı və ya vətəndaş cəmiyyəti təşkilatıdırmı?

- Təklif olunan layihə iqlim dəyişikliyi ilə bağlı konkret problem və ya həssaslığın həllinə yönəlibmi?
- Təklif olunan həll əsasən **Təbiət əsaslı həllərə (NbS)** və ya **Ekosistem əsaslı uyğunlaşmaya (EbA)** əsaslanırmı?
- Müraciət edən təşkilat kiçik qrantı idarə etmək üçün kifayət qədər maliyyə və əməliyyat imkanlarına malikdirmi (məsələn, sadə mühasibat uçotunu aparmaq qabiliyyəti)?
- Müraciət edən təşkilat icma qarşısında hesabatlı olduğunu nümayiş etdirirmi (məsələn, qrant vəsaitinin istifadəsi ilə bağlı faydalanan icmanın iştirakı və məlumatlandırılması, eləcə də icmanın dəstəyi)?
- Müraciət edən təşkilatın yerli layihələrin icrası üzrə əvvəlki təcrübəsi varmı?
- Müraciət edən təşkilat gender bərabərliyi və sosial inklüzivlik prinsiplərinə sadiqliyini nümayiş etdirirmi?
- Müraciət edən təşkilat yerli dövlət hakimiyyəti orqanlarından institusional baxımdan müstəqildirmi (yəni dövlət strukturunun bilavasitə tərkib hissəsi və ya siyasi qurum deyilmi)?
- UNEP-in maliyyə qaydalarına uyğun olaraq büdcə dövlət vəzifəli şəxslərə (o cümlədən yerli bələdiyyə nümayəndələrinə) birbaşa əməkhaqqı və ya digər ödənişləri **istisna** edirmi?*
- Layihə təklifi müvafiq milli və yerli iqlim və ya uyğunlaşma siyasətləri barədə məlumatlılığı və təklif olunan fəaliyyətin onların yerli səviyyədə həyata keçirilməsinə necə töhfə verə biləcəyini nümayiş etdirirmi?

Bu meyarlar yalnız texniki uyğunluğu qiymətləndirmək üçün deyil, həm də h**esabatlılıq, korrupsiyaya qarşı mübarizə, cinsi istismardan müdafiə, insan hüquqları və vəsaitlərin məsuliyyətli istifadəsi prinsiplərinin qorunmasını təmin etmək üçün tətbiq edilir.**

* ***Qeyd:*** *Yerli vəzifəli şəxslər layihə fəaliyyətlərində, məsələn, məsləhət, təşkilati dəstək və ya nəzarət məqsədilə iştirak edə bilərlər. Lakin SGFS qrantı hesabına onlara birbaşa ödəniş edilməməlidir; onların iştirakı qeyri-maliyyə töhfəsi (in-kind) və ya dövlət tərəfindən birgə maliyyələşdirmə formasında təmin oluna bilər.*

### Şikayət və rəy bildirmə mexanizmi

SGFS-in yerli səviyyədə şəffaf və düzgün şəkildə həyata keçirilməsini təmin etmək üçün sadə və əlçatan şikayət və rəy bildirmə mexanizmi yaradılıb. Bu mexanizm icma üzvlərinə, maraqlı tərəflərə və qrant alan təşkilatlara vəsaitlərdən sui-istifadə, ayrı-ayrı şəxslərə əsassız üstünlük verilməsi və ya proses zamanı kiminsə kənarda qalması ilə bağlı narahatlıqlarını məxfi şəkildə bildirməyə imkan verir.
Əsas xüsusiyyətlər:

- Anonim şikayətlərin təqdim edilməsi üçün forma (rəqəmsal formada və/və ya layihə səfərləri zamanı fiziki şikayət qutusu vasitəsilə).
- UNEP tərəfindən idarə olunan və Sustainable Caucasus ilə birgə izlənilən ümumi e-poçt ünvanı.
- Layihənin başlanğıc mərhələsində icmalara öz hüquqları, şikayət və ya narahatlıqlarını necə bildirmələri barədə məlumat və təlimatın verilməsi.
- Məxfilik və ədalətlilik prinsipləri qorunmaqla daxil olan şikayətlərin qeydiyyata alınması, araşdırılması və nəticələrinin sənədləşdirilməsi.

## Layihə təkliflərinin qiymətləndirilməsi və seçilməsi

Qiymətləndirmədə vahid yanaşmanı və şəffaflığı təmin etmək, həmçinin layihə təkliflərini eyni meyarlar əsasında müqayisə etmək üçün uyğun hesab edilən bütün müraciətlər **Standart Müraciət Qiymətləndirmə Forması (Əlavə 1)** əsasında nəzərdən keçiriləcək. Bu formada hər bir layihə təklifinin

tematik istiqamətlərə uyğunluğu, ilkin uyğunluq yoxlamasının nəticələri, verilmiş ballar və qiymətləndiricilərin qeydləri qısa və aydın şəkildə əks etdiriləcək.

Standartlaşdırılmış Xülasə Şablonu beş bölmədən ibarətdir: (1) Müraciət haqqında əsas məlumatlar, (2) Layihənin tematik istiqaməti və xülasəsi, (3) Uyğunluğun yoxlanılması, (4) Keyfiyyət Qiymətləndirmə Çərçivəsinə əsaslanan bal xülasəsi və (5) Əsas müşahidələr və tövsiyələr. Bu vahid format qiymətləndirmə prosesinin daha şəffaf və sadə aparılmasına imkan verir. Eyni zamanda, maliyyələşdirmə ilə bağlı qərarların faktlara əsaslanan və ədalətli şəkildə qəbulunu dəstəkləyir. Qiymətləndirmə meyarları və balvermə cədvəli isə müraciət edən təşkilatların dolğun layihə təklifləri hazırlaya bilməsi üçün Layihə Təkliflərinin Qəbulu Elanı ilə birlikdə ictimaiyyətə təqdim ediləcək.

### Keyfiyyət qiymətləndirilməsi

Uyğun hesab edilən müraciətlər keyfiyyət baxımından qiymətləndirilməsi və maliyyələşdirmə üçün seçim məqsədilə regional Seçim Komitəsinə təqdim ediləcək. **Komitənin hər bir üzvü müraciətləri müəyyən edilmiş qiymətləndirmə meyarları əsasında ayrıca nəzərdən keçirəcək və bal verəcək**. Hər bir müraciət **Əlavə 2-**də təqdim olunan **qiymətləndirmə cədvəlinə** uyğun qiymətləndiriləcək. Qiymətləndirmə iki mərhələdə aparılacaq və yekun nəticə 0–100 bal üzrə müəyyən ediləcək. Balların verilməsi zamanı müvafiq balvermə təlimatından istifadə olunacaq.

i. Hər bir Komitə üzvü yerli şəraitə dair bilik və təcrübəsini, həmçinin yerli siyasətlərlə uyğunluğu nəzərə alaraq **layihə təkliflərini fərdi şəkildə qiymətləndirəcək**.
ii. Fərdi qiymətləndirmələrin nəticələri daha sonra vahid bal **cədvəlində ümumiləşdiriləcək və hər bir ölkə üzrə ən yüksək bal toplamış müraciətlər müəyyən ediləcək.**

### Layihələrin seçilməsi

Keyfiyyət qiymətləndirilməsindən sonra Seçim Komitəsinin bütün üzvləri ümumiləşdirilmiş bal cədvəlini birgə müzakirə edəcək və hansı müraciətlərin maliyyələşdiriləcəyi barədə yekun qərar verəcəklər. Layihələrin seçim nəticələri şəffaf qaydada açıqlanacaq. Müraciət edən hər bir təşkilata nəticə barədə rəsmi bildiriş[4] e-poçt vasitəsilə göndəriləcək. Bildirişdə aşağıdakılar yer alacaq:

- Layihə təklifinin maliyyələşdirmə üçün seçilib-seçilmədiyi barədə aydın məlumat.
- Qiymətləndirmə rəyinə əsasən müraciətin güclü və zəif tərəflərinin xülasəsi.
- Seçilmiş təşkilatlar üçün tam layihə sənədinin hazırlanması, icra planının tərtib edilməsi və uyğunluq tələblərinin yerinə yetirilməsi ilə bağlı növbəti addımlar.
- Seçilməyən təşkilatlara imkan daxilində fərdi rəy təqdim ediləcək, həmçinin gələcək müraciətlərin təkmilləşdirilməsinə kömək edə biləcək məlumat və resurslardan istifadə imkanı veriləcək.

Layihənin internet səhifəsində seçilmiş layihələrin ümumi siyahısı dərc ediləcək. Siyahıda layihənin adı, icraçı təşkilat, ölkə, tematik istiqamət və qrant məbləği göstəriləcək. Bununla yanaşı, aşağıdakı məlumatları əks etdirən xəbər materialı (o cümlədən sosial media və ya məlumat bülleteni vasitəsilə) yayımlanacaq:

- Qəbul edilmiş və qiymətləndirilmiş müraciətlərin ümumi sayı
- Seçim prosesi və tətbiq olunan meyarlar haqqında qısa məlumat.
- Daxil olan müraciətlərin coğrafi bölgüsü və əsas tematik istiqamətləri.

---

[4] Hüquqi qeyd: Seçim barədə bildiriş UNEP tərəfindən məcburi razılaşma və ya hüquqi öhdəlik yaratmır. Yekun təsdiq və vəsaitlərin ödənilməsi bütün lazımi yoxlamaların və uyğunluq tələblərinin uğurla tamamlanmasından, eləcə də rəsmi qrant müqaviləsinin imzalanmasından asılıdır. Müraciət edən təşkilatlara yalnız nəticə bildirişinə əsaslanaraq maliyyə və ya əməliyyat öhdəlikləri götürməmək tövsiyə olunur.

# Tez-tez verilən suallar

⇒ **Uyğunluq**

***Qrant üçün kimlər müraciət edə bilər?*** Cənubi Qafqazın dağ icmalarında iqlim dəyişmələrinin təsirlərinə uyğunlaşmağa yönəlmiş, o cümlədən icma əsaslı fəaliyyətlər həyata keçirən vətəndaş cəmiyyəti təşkilatları müraciət edə bilərlər. Yerli səviyyədə fəaliyyət göstərən icma əsaslı təşkilatlara, eləcə də gənclər və qadın təşkilatlarına üstünlük verilir.

***Fiziki şəxslər müraciət edə bilərmi, yoxsa yalnız qeydiyyatdan keçmiş təşkilatlar müraciət edə bilər?*** Yalnız qeydiyyatdan keçmiş təşkilatlar müraciət edə bilər.

***Təşkilatın rəsmi qeydiyyatdan keçməsi tələb olunurmu?*** Bəli. Yalnız rəsmi qeydiyyatdan keçmiş təşkilatlar müraciət edə bilər. Müraciət formasına təşkilatın rəsmi qeydiyyat şəhadətnaməsi əlavə edilməlidir. Təşkilat seçildiyi halda, qrant vəsaitini qəbul etmək üçün onun rəsmi bank hesabı olmalıdır; şəxsi və ya fiziki şəxsə məxsus bank hesabı qəbul edilmir.

***Coğrafi və ya tematik məhdudiyyətlər varmı (məsələn, yalnız müəyyən regionlarda fəaliyyət göstərən və ya konkret məsələlər üzrə çalışan təşkilatlar üçün)?*** Bəli. Uyğun təşkilatlar proqramdan faydalanan dağ icması ilə birbaşa iş təcrübəsinə malik olduqlarını nümayiş etdirməlidirlər. Müraciət edən təşkilatlar həmçinin təklif olunan layihəni həyata keçirmək üçün sübut olunmuş imkanlara malik olduqlarını göstərməlidirlər. Uyğunlaşma və/və ya ətraf mühit sahəsində fəaliyyətlərin icrası üzrə geniş təcrübə qiymətləndirmə zamanı üstünlük hesab ediləcək.

**Təşkilatların beynəlxalq maliyyələşdirmə hesabına layihələrin icrası üzrə əvvəlki təcrübəsi olmalıdırmı?** Xeyr. Təşkilatların yalnız dağ icmalarına fayda verən layihələrdə iş təcrübəsini nümayiş etdirməsi tələb olunur; bu təcrübənin mütləq beynəlxalq maliyyə mənbələri hesabına əldə edilməsi şərt deyil.

⇒ **Müraciət prosesi**

***Qrant üçün necə müraciət etmək olar?*** Müraciət edən təşkilatlar bu keçiddə təqdim olunan müraciət formasını tam doldurmalıdılar və təqdim etməlidirlər.

***Müraciətlə birlikdə hansı sənədlər təqdim edilməlidir?*** Müraciət formasına təşkilatın qüvvədə olan qeydiyyat şəhadətnaməsi. Təşkilat seçildiyi halda, onun rəsmi bank rekvizitləri də təqdim olunmalıdır; bank rekvizitləri təşkilatın qeydiyyat məlumatları ilə uyğun gəlməlidir və təşkilatın qanuni nümayəndəsinin şəxsiyyət vəsiqəsi və ya pasportu əlavə edilməlidir.

***Müraciət üçün son tarix varmı?*** Bəli. Yalnız 15 sentyabr 2026-cı il saat 23:59-dək (Cənubi Qafqaz vaxtı, UTC+4) daxil olmuş müraciətlər nəzərdən keçiriləcək.

***Müraciəti ingilis dilindən başqa dillərdə təqdim etmək mümkündürmü?*** Bəli. Müraciət formasını Cənubi Qafqaz ölkələrinin milli dillərində, o cümlədən Azərbaycan dillərində də doldurmaq mümkündür.

⇒ **Maliyyələşdirmə şərtləri**

***Qrantın maksimum və minimum məbləği nə qədərdir?*** Maksimum qrant məbləği 30 000 ABŞ dollarıdır. Minimum məbləğ müəyyən edilməyib. Bununla belə, müraciət edən təşkilatlara əhəmiyyətli Təbiət əsaslı həllərin və sahədə həyata keçiriləcək praktiki fəaliyyətlərin icrası üçün kifayət qədər maliyyə vəsaiti tələb etmələri tövsiyə olunur.

***Hansı növ həllər təklif edilə bilər?*** Layihələr yerli icmaların imkanlarını gücləndirməli, müəyyən edilmiş iqlim risklərinə və təsirlərinə ekosistem əsaslı yanaşmalar və/və ya Təbiət əsaslı həllər vasitəsilə cavab verməlidir. Təklif olunan həllərə, məsələn, ekosistemlərin bərpası, yağış suyunun toplanması, iqlimə uyğun ağıllı kənd təsərrüfatı, fəlakətlərə hazırlıq və gəlir mənbələrinin şaxələndirilməsi daxil ola bilər. Mümkün yanaşmalar və nümunələrlə tanış olmaq üçün aşağıdakı bukletlərə baxa bilərsiniz: Mountains ADAPT: Solutions from the South Caucasus və Mountains ADAPT: Solutions from East Africa.

***Qrant hansı xərcləri qarşılaya bilər?*** Qrant vəsaiti işçi heyətinin və cəlb olunmuş ekspertlərin əməkhaqqı, avadanlıq və materiallar, təlim və potensialın gücləndirilməsi fəaliyyətləri, əməliyyat və inzibati xərclər, eləcə də layihənin icrası ilə birbaşa bağlı digər uyğun xərclər daxil olmaqla geniş çeşiddə xərcləri qarşılamaq üçün istifadə edilə bilər.

***Vəsaitlərin istifadəsinə məhdudiyyətlər varmı?*** Bütün xərclər təsdiqlənmiş layihə ideyasına birbaşa uyğun olmalı, müraciətdə əsaslandırılmalı, layihənin icrası zamanı səmərəlilik və dayanıqlılığı təmin etməlidir.
UNEP-in maliyyə qayda və prosedurlarına uyğun olaraq büdcəyə dövlət vəzifəli şəxslərə (o cümlədən yerli bələdiyyə nümayəndələrinə) birbaşa əməkhaqqı və ya digər ödənişlər daxil edilə bilməz. Yerli vəzifəli şəxslərin layihə fəaliyyətlərində iştirakı (məsələn, fasilitasiya və ya nəzarət) nəzərdə tutula bilər, lakin bu iştirak qeyri-maliyyə töhfəsi (in-kind) formasında əməkdaşlıq və ya dövlətin birgə maliyyələşdirməsi hesabına təmin edilməli və SGFS qrantından birbaşa ödənişi əhatə etməməlidir.

***Birgə maliyyələşdirmə tələb olunurmu?*** Birgə maliyyələşdirmə məcburi tələb deyil. Bununla belə, mövcud və ya gözlənilən birgə maliyyələşdirməsi olan layihələr (məsələn, yerli bələdiyyə və ya digər tərəfdaşlar tərəfindən) seçim prosesində üstünlük kimi qiymətləndiriləcək.

⇒ **Seçim meyarları**

***Müraciətlər necə qiymətləndiriləcək?*** Müraciətlər əvvəlcə Uyğunluq Meyarlarına cavab verib-vermədiyini müəyyən etmək üçün sadə ilkin uyğunluq yoxlamasından keçəcək (ətraflı məlumat üçün Əlavələr bölməsinə baxın). İlkin yoxlamadan sonra müraciətlər Əlavələr bölməsində təqdim olunan Qiymətləndirmə Matrisi əsasında Seçim Komitəsi tərəfindən nəzərdən keçiriləcək.

***Seçim üçün əsas meyarlar hansılardır?*** Əsas seçim meyarlarına təklif olunan həllin yerli iqlim həssaslıqlarına uyğunluğu, texniki mümkünlük, inklüzivlik (gender, gənclər və s.), innovativlik və daha geniş miqyasda tətbiq potensialı, icmanın layihəyə sahib çıxması və iştirakı, ekoloji və sosial təminat tələblərinə uyğunluq və dayanıqlılıq daxildir (ətraflı məlumat üçün Əlavələr bölməsinə baxın).

***Qrantların ayrılması barədə yekun qərarı kim verir?*** Cənubi Qafqaz üzrə Seçim Komitəsi qısa siyahıya daxil edilmiş bütün layihələri qiymətləndirəcək və maliyyələşdirmə barədə yekun qərar qəbul edəcək (ətraflı məlumat üçün Əlavələr bölməsinə baxın).

***Seçilməyən təşkilatlara rəy veriləcəkmi?*** Müraciət edən hər bir təşkilata layihə təklifinin seçilib-seçilmədiyi barədə nəticə bildirişi göndəriləcək. Seçilməyən təşkilatlara da rəy təqdim olunacaq.

⇒ **İcra və hesabatvermə**

***Layihələr maliyyələşdirmə üçün seçildikdən sonra nə baş verir?*** Seçilmiş təşkilatlar layihənin əsas mərhələlərini və icra müddətlərini əhatə edən ətraflı icra planı hazırlamalıdırlar. Qrant alan təşkilatların imkanları qiymətləndiriləcək və müəyyən edilmiş ehtiyaclara uyğun dəstək göstəriləcək. Bu dəstək layihələrin texniki baxımdan əsaslandırılmış, inklüziv və UNEP-in ekoloji və sosial standartlarına uyğun şəkildə həyata keçirilməsinə kömək edəcək.

***Qrant alan təşkilatlar üçün hesabatvermə tələbləri nələrdir?*** Qrant alan təşkilatlar icra planında müəyyən edilmiş qrafikə uyğun hesabat verməlidirlər. Hesabatlara əsas mərhələlər üzrə irəliləyişi təsdiqləyən məlumatlar, büdcə xərcləri və maliyyə sənədləri, eləcə də fəaliyyətləri sənədləşdirən vizual materiallar (məsələn, foto və videolar) daxil edilməlidir.

***İrəliləyiş hesabatları hansı tezliklə təqdim edilməlidir?*** İki hesabat təqdim olunmalıdır: layihənin icrası dövründə aralıq hesabat və fəaliyyətlər başa çatdıqdan sonra yekun hesabat. Hər iki hesabat həm görülmüş işlər və nəticələr, həm də maliyyə məlumatlarını əhatə etməlidir. İcra planı hazırlanarkən razılaşdırıldığı halda əlavə monitorinq məlumatlarının təqdim edilməsi də tələb oluna bilər.

***Monitorinq prosesinə sahə səfərləri və ya auditlər daxildirmi?*** Layihələr sahə monitorinq səfərləri üçün təsadüfi qaydada seçiləcək. Seçilmiş layihələr tələblərə uyğunluğun və hesabatlılığın təmin edilməsi məqsədilə yaxından izləniləcək.

⇒ **Təqvim**

***Seçilmiş təşkilatlara nə vaxt məlumat veriləcək?*** 2026-cı ilin üçüncü rübündə.

***Layihənin icrasına nə vaxt başlanmalıdır?*** 2026-cı ilin dördüncü rübündə.

***Qrantın icra müddəti nə qədərdir?*** 12 ay.

⇒ **Dəstək**

***Müraciət prosesi zamanı texniki yardım göstərilirmi?*** Texniki yardım və ya hər hansı əlavə izah üçün UNEP-in layihə komandası ilə unep-mountainsadapt@un.org e-poçt ünvanı vasitəsilə əlaqə saxlayın.

**Qrant alan təşkilatlara təlim və ya potensialın gücləndirilməsi dəstəyi göstəriləcəkmi?** Bəli. Potensial ehtiyacları qiymətləndirildikdən sonra qrant alan təşkilatlara həmin ehtiyaclara uyğun potensialın gücləndirilməsi dəstəyi göstəriləcək.

# Əlavə 1. Standartlaşdırılmış Müraciət Qiymətləndirmə Xülasəsi

**Bölmə 1: Əsas məlumatlar**

| Məlumat sahəsi | Təfərrüatlar |
|---|---|
| **Müraciətin ID-si** | [Avtomatik yaradılır] |
| **Ölkə / Region** | [məsələn, Azərbaycan / Cənubi Qafqaz] |
| **Müraciət edən təşkilat** | [Ad] |
| **Hüquqi status** | [Qeydiyyatdan keçmiş İƏT/QHT/qadın təşkilatı və s.] |
| **Layihənin adı** | [Tam adı] |
| **Tələb olunan qrant məbləği** | [ABŞ dolları] |
| **İcra müddəti** | [məsələn, 12 ay] |
| **İcra yeri** | [Bələdiyyə/Rayon, mövcuddursa GPS koordinatları] |

**Bölmə 2: Tematik istiqamət və xülasə**

| | |
|---|---|
| **Tematik istiqamət(lər)** | **[✓ İqlimə uyğun ağıllı kənd təsərrüfatı / ✓ Ekosistemlərin bərpası / və s.]** |
| **Layihənin qısa təsviri** | [Əsas fəaliyyətləri və nəzərdə tutulan təsirləri ümumiləşdirən 3–5 cümlə] |

**Bölmə 3: Uyğunluğun ilkin yoxlanılması**

| Uyğunluq meyarları | Bəli / Xeyr |
|---|---|
| Qeydiyyatdan keçmiş icma əsaslı təşkilat | |
| İqlim dəyişikliyinə uyğunlaşma ilə əlaqəlidir | |
| Təbiət əsaslı / ekosistem əsaslı həlldir | |
| Maliyyə və əməliyyat baxımından dayanıqlılığı təsdiqlənib | |
| Ekoloji və sosial təminat tələblərinə uyğunluq (ilkin yoxlama) | |

*Müraciətin uyğunluq yoxlamasından keçməsi üçün bütün meyarlar üzrə "Bəli" qeyd olunmalıdır.*

**Bölmə 4: Qiymətləndirmə xülasəsi / Balvermə meyarları**

| Meyar | Maksimum bal | Verilmiş bal | Qeydlər |
|---|---|---|---|
| Yerli iqlim həssaslıqları və siyasət prioritetlərinə uyğunluq | 20 bal | | |
| Texniki mümkünlük | 20 bal | | |
| İnklüzivlik (gender, gənclər və s.) | 15 bal | | |
| İnnovativlik / miqyaslandırma potensialı | 15 bal | | |
| İcmanın layihəyə sahib çıxması və iştirakı | 15 bal | | |
| Ekoloji və sosial təminat tələblərinə uyğunluq və dayanıqlılıq | 15 bal | | |
| **Ümumi bal** | **100 bal** | **[xx/100]** | |

*60/100-dən aşağı bal alan müraciətlər əlavə baxış üçün işarələnməli və ya rədd edilməlidir.*

**Bölmə 5: Seçim Komitəsinin qeydləri**

| Müşahidələr | Qeydlər |
|---|---|
| Əsas güclü tərəflər | [məsələn, yerli dövlət qurumları ilə güclü əməkdaşlıq, yaxşı qurulmuş monitorinq və qiymətləndirmə sistemi] |
| Əsas risklər / zəif tərəflər | [məsələn, icra üzrə məhdud əvvəlki təcrübə, zəif maliyyə göstəriciləri] |
| Milli prioritetlərə uyğunluq | [məsələn, Milli Uyğunlaşma Planının prioritet sektoru ilə uyğunluq] |
| Əlavə dəqiqləşdirməyə ehtiyac varmı? | [Bəli/Xeyr – "Bəli"dirsə, nəyin dəqiqləşdirilməli olduğunu göstərin] |

# Əlavə 2. Seçim Komitəsinin qiymətləndirmə matrisi

| Meyar | Çəki | Balvermə üzrə təlimat | Şərhlər/Qeydlər |
|---|---|---|---|
| **1. Yerli iqlim həssaslıqlarına və milli/yerli prioritetlərə uyğunluq** | 20 bal | - 0–5: Qeyri-müəyyən və ya uyğun deyil<br>- 6–10: Ümumi səviyyədə uyğundur<br>- 11–15: Aydın şəkildə uyğundur<br>- 16–20: İqlim riskləri və rəsmi prioritetlərlə güclü, sübutlara əsaslanan uyğunluq | Layihə müəyyən edilmiş iqlim həssaslıqlarını birbaşa hədəfləyirmi və milli/yerli uyğunlaşma məqsədlərinə töhfə verirmi? |
| **2. Texniki mümkünlük və dayanıqlılıq** | 20 bal | - 0–5: Qeyri-aydın və ya praktik deyil<br>- 6–10: Məhdud olsa da, həyata keçirilə bilər<br>- 11–15: Kiçik risklərlə həyata keçirilə bilər<br>- 16–20: Yaxşı hazırlanıb və real şəkildə həyata keçirilə bilər | Təklif olunan fəaliyyətlər texniki cəhətdən əsaslandırılmışdırmı və müəyyən edilmiş müddət və büdcə çərçivəsində həyata keçirilə bilərmi? Risklər adekvat şəkildə idarə olunurmu? |
| **3. İnklüzivlik və gender/gənclərin ehtiyaclarının nəzərə alınması** | 15 bal | - 0–5: İnklüzivlik strategiyası yoxdur<br>- 6–10: İnklüzivliyə müəyyən dərəcədə diqqət yetirilir<br>- 11–15: Güclü və inteqrasiya olunmuş inklüzivlik planı | Layihə həssas və kənarda qalan qruplara (məsələn, qadınlar, gənclər, yerli xalqlar) mənalı rol və iştirak imkanı verirmi? |
| **4. İnnovativlik və miqyaslandırma potensialı** | 15 bal | - 0–5: Yenilik və təkrarlana bilənlik potensialı yoxdur<br>- 6–10: Bəzi elementlər başqa şəraitə uyğunlaşdırıla bilər<br>- 11–15: Aydın şəkildə innovativdir və daha geniş miqyasda tətbiq oluna bilər | Təklif olunan həll başqa şəraitlərdə də təkrarlana biləcək yeni ideyalar, yanaşmalar və ya modellər təqdim edirmi? |
| **5. İcmanın layihəyə sahib çıxması və iştirakı** | 15 bal | - 0–5: Yuxarıdan-aşağı planlaşdırma<br>- 6–10: Müəyyən səviyyədə məsləhətləşmə<br>- 11–15: Güclü iştirakçı planlaşdırma və yerli sahiblik | İcmalar layihənin hazırlanmasında iştirak ediblərmi? Layihəyə rəhbərlik edəcək və ya onun birgə icrasında iştirak edəcəklərmi? |
| **6. Risklərin idarə edilməsi və ekoloji-sosial təminat tələblərinin inteqrasiyası** | 15 bal | - 0–5: Risklər və təminat tələbləri nəzərə alınmayıb<br>- 6–10: Risklər əsas səviyyədə müəyyən edilib, lakin onların azaldılması tədbirləri məhduddur<br>- 11–15: Ekoloji və sosial risklər aydın müəyyən edilib və müvafiq riskazaltma tədbirləri nəzərdə tutulub | Layihə potensial riskləri (məsələn, ekosistemlərə zərər, həssas qrupların kənarda qalması, yerli gərginlik) müəyyən edibmi? Risklərin azaldılması üçün real tədbirlər nəzərdə tutulubmu? Layihə zərər vurmamaq prinsipinə əməl etməklə əlavə faydalar yaradırmı? |

**Ümumi bal: ____ / 100**

---

**İstəyə bağlı: Keyfiyyət üzrə şərhlər bölməsi**

- **Güclü tərəflər:**
- **Zəif tərəflər və ya narahatlıq doğuran məqamlar:**
- **Təklif olunan şərtlər (tətbiq olunarsa):**

---

**Bal üzrə qiymətləndirmə səviyyələri**

- **90–100:** Müstəsnan (Əla) — qeyd-şərtsiz maliyyələşdirmə üçün tövsiyə olunur
- **75–89:** Güclü — tövsiyə olunur; kiçik dəqiqləşdirmə tələb oluna bilər
- **60–74:** Orta — konkret prioritetlərə uyğun olduqda və ya maliyyə vəsaiti qaldıqda nəzərdən keçirilə bilər
- **60-dan aşağı:** Zəif — cari seçim mərhələsi üçün tövsiyə edilmir